**AZƏRBAYCAN RESPLUBLİKASI ELM VƏ TƏHSİL NAZİRLİYİ**

**BAKI MÜHƏNDİSLİK UNİVERSİTETİ ELMİ ŞURASININ**

**07.07.2023-cü il tarixli iclasının**

**Nömrə: 06/2023 SAYLI PROTOKOLUNDAN**

**ÇIXARIŞ**

İştirak etmişdir: Elmi Şuranın
33 üzvündən 31 nəfər
Sədr – prof. Məmmədov H.Ə.
Elmi şuranın katibi – dos. Namazov B.F.

**İCLASIN GÜNDƏLİYİ**

**I MƏSƏLƏ**

**1. 2022-2023-cü tədris ilində BMU-nun fəaliyyəti və perspektiv inkişafı haqqında**

**DİNLƏNİLDİ:**

**Rektor, Prof. Havar Məmmədov:** Elmi Şuranın fəaliyyətinin qiymətləndirilməsi ilə çıxışına başlayan Rektor, hesabat dövründə ümumilikdə 11 Elmi Şura iclasının keçirildiyini bildirdi. Sədr, Elmi Şura iclaslarından 10-nun plan üzrə nəzərdə tutulan iclaslar, 1-nin isə, növbədənkənar iclas olduğunu qeyd etdi. O, iclaslarda ümimilikdə 42 məsələnin müzakirə edildiyini və bunlardan 24-nün plan üzrə nəzərdə tutulmuş məsələlər, 28-nin isə müxtəlif məsələlər kontekstində gündəliyə daxil edilmiş məsələlər olduğunu vurğuladı. Rektor həmçinin universitetin əsas fəaliyyət sahələri olan tədris, təlim-tərbiyə, beynəlxalq əlaqələr, elmi işlər və s. kimi mövzularda müvafiq prorektorlar tərəfindən hesabatlar Elmi Şurada təqdim olunduğunu və geniş müzakirələr aparıldığını Şura üzvlərinin diqqətinə çatdırdı.

**SƏSVERMƏNİN NƏTİCƏLƏRİ:**

Lehinə 31 səs, əleyhinə 0 səs, bitərəf 0 səs. Yekdilliklə qəbul edildi.

**QƏRARA ALINDI:**

1. 2022-2023-cü tədris ilində BMU-nun fəaliyyəti və perspektiv inkişafı haqqında BMU-nun rektorun çıxışı nəzərə alınsın və görülən işlər qənaətbəxş hesab edilsin;

2. Universitetin elmi inkişafını sürətləndirmək üçün yeni elmi-tədqiqat laboratoriyası yaradılsın;

3. Universitetin yeni tədris korpusunun və idman kompleksinin, tələbə yataqxanasının tikintisi ilə bağlı Elm və Təhsil Nazirliyi və aidiyyəti orqanlar qarşısında məsələlər qaldırılsın;

4. Beynəlxalq əlaqələr və aparıcı xarici universitetlərlə tələbə-müəllim mübadiləsi genişləndirilsin, mühazirə oxumaq üçün BMU-ya aparıcı mütəxəssislər dəvət olunsun;

5. Universitetin ictimaiyyətlə əlaqələr üzrə fəaliyyəti gücləndirilsin, universitetə yeni ixtisaslara qəbulla bağlı təbliğata diqqət artırılsın;

6. Universitet-məzun və məzun-məzun əlaqələrini inkişaf etdirmək məqsədilə Məzun Assosiasiyası yaradılsın.

**Tədris işləri üzrə prorektor :** **Elmi Şuranın sədr müavini prof. ORUCOV H. D.**

**Elmi katib:** **ZEYNALLI J. R.** (Çıxarış düzdür)

Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi • Bakı Mühəndislik Universiteti publik hüquqi şəxs
Ministry of Science and Education Republic of Azerbaijan • Baku Engineering University Public Legal Entity